Gürcüstan Respublikasının Qanunu

Ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında

Maddə 1. Qanunun məqsədi

Bu qanunun məqsədi ayrı-seçkiliyin bütün formalarını ləğv etmək və Gürcüstan Respublikasının qanunlarına uyğun olaraq hər hansı bir fiziki və hüquqi şəxsin hüquqlarından bərabər şəkildə istifadə edilməsini irqindən, dəri rəngindən, dilindən, cinsindən, yaşından, vətəndaşlığından, mənşəindən, doğum yerindən, yaşayış yerindən, əmlak və ya rütbəsindən, dinindən və ya imanından, milli, etnik və ya sosial mənsubiyyətindən, peşəsindən, ailə vəziyyətindən, sağlamlıq vəziyyətindən, fiziki məhdudiyyətindən, cinsi oriyentasiyasından, gender şəxsiyyəti və ifadəsindən, siyasi və ya digər baxışlarından və ya digər xüsusiyyətlərindən asılı olmayaraq təmin etməkdir.

Maddə 2. Ayrı-seçkilik anlayışı. Ayrı-seçkiliyin qadağan edilməsi

1. Gürcüstan Respublikasında istənilən növ ayrı-seçkilik qadağan edilmişdir.
2. Birbaşa ayrı-seçkilik Gürcüstan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hüquqlardan istifadə edərkən, bu qanunun birinci maddəsi ilə nəzərdə tutulan hər hansı bir əlamətə görə eyni vəziyyətdə olan digər şəxslərlə müqaisədə insanı əlverişsiz vəziyyətə salan və ya insanları əslində qeyri-bərabər şəraitdə bərabər vəziyyətə salan, belə davranış və ya şərtlərin yaradılması ictimai qaydanı və əxlaqı qorumaq üçün qanunun məqsədinə xidmət edir, obyektiv və ağlabatan bir əsaslandırmaya malikdir və demokratik cəmiyyətdə zəruridir, istifadə olunan vasitələr isə belə məqsədə çatmaq üçün mütənasib olması istisna olmaqla, davranış və ya şəraitin yaradılmasıdır.
3. Dolayı ayrı-seçkilik forması neytral, mahiyyətcə ayrı-seçkilikli əsasnamə, meyar və ya təcrübə, şəxsi bu qanunun birinci maddəsi ilə nəzərdə tutulan hər hansı bir əlamətə görə eyni vəziyyətdə olan digər şəxslərlə müqaisədə insanı əlverişsiz vəziyyətə salan və ya insanları əslində qeyri-bərabər şəraitdə bərabər vəziyyətə salan, belə vəziyyət ictimai qaydanı və əxlaqı qorumaq üçün qanunun məqsədinə xidmət edir, obyektiv və ağlabatan bir əsaslandırmaya malikdir və demokratik cəmiyyətdə zəruridir, istifadə olunan vasitələr isə belə məqsədə çatmaq üçün mütənasib olması istisna olmaqla, bir vəziyyətdir.

   3^1. Təcavüz, hər hansı bir əlamət altında bir insanın təqibi, məcbur edilməsi və ya / və şəxsə qarşı xoşagəlməz rəftardır ki, bu da insanın ləyaqətinə xələl gətirmək, ya da onun üçün qorxuducu, düşmənçilik, ləyaqəti alçaldan və ya təhqiramiz bir mühit yaratmaqdır.

   3^2. Cinsi təcavüz, cinsi xarakterli istənilən xoşagəlməz şifahi, qeyri-şifahi və ya fiziki davranışdır ki, bu da insanın ləyaqətinə xələl gətirmək, ya da onun üçün qorxuducu, düşmənçilik, ləyaqəti alçaldan və ya təhqiramiz bir mühit yaratmaqdır.

   4. Bir çox əlamətə görə ayrı-seçkilik ayrı-seçkilik iki və ya daha çox əlamətə görə ayrı-seçkilikdir.

   5. Bir şəxsi məcbur etmək, təşviq və ya dəstək etmək və ya bu maddə ilə nəzərdə tutulan ayrı-seçkiliyi həyata keçirmək üçün üçüncü şəxsə qarşı ona tapşırıq verəcək istənilən rəftar qadağandır.

   6. Bu maddənin şərtlərinə görə ayrı-seçkilik, şəxsin bu qanunun birinci maddəsində nəzərdə tutulmuş işarəyə sahib olub-olmamasından asılı olmayaraq mövcuddur və bu, ona qarşı ayrı-seçkilik hərəkətlərinə səbəb olmuşdur.

7. Ayrı-seçkilik, xüsusən də cinsiyyət, hamiləlik və analıq məsələlərində, habelə əlilliyi olan şəxslərdə həqiqi bərabərliyi təşviq etmək və ya əldə etmək üçün hazırlanmış xüsusi və müvəqqəti tədbir deyildir.
8. Ayrı-seçkilik, müəyyən tələblərə əsaslanan müəyyən bir iş, fəaliyyət və ya sahə üzrə heç bir fərq, yolverilməzlik və ya üstünlük demək deyildir.
9. Demokratik cəmiyyətdə dövlətin mübahisəsiz bir marağı və dövlətin müdaxiləsi lazımdırsa, fərqli rəftara, şərait və / və ya şərait yaratmağa icazə verilir.
10. Bərabər davranış prinsipi aşağıdaki hallarda tətbiq olunur:
A) əmək və müqavilə öncəsi münasibətləri, o cümlədən:
a.a) müqavilə öncəsi münasibətlərdə seçim meyarları və işə qəbul şərtləri, fəaliyyət sahəsindən asılı olmayaraq peşəkar iyerarxiyanın bütün səviyyələrində karyera yüksəlişinin mövcudluğu;
a.b) peşəkar iyerarxiyanın bütün səviyyələrində peşə yönümlü, peşə inkişafı, peşə təhsili və yenidən hazırlıq (praktik peşə təcrübəsi daxil olmaqla) bütün formalarının mövcudluğu;
a.q) məşğulluq, əmək, əmək haqqı və işə xitam verilməsi şərtləri barədə;
B) işçilərin təşkilatının, işəgötürənlər təşkilatının və ya üzvlərinin müəyyən bir professional qrupa aid olduğu bir təşkilatın üzvlüyü və fəaliyyəti, o cümlədən bu təşkilatlardan aldığı güzəştlər;
Q) Sosial müdafiə və səhiyyə şərtlərinə, təhsilə, mal və xidmətlərin çatdırılması, o cümlədən:
q.a) Sosial müdafiəyə, sosial təminata, sosial müavinətlərə və sairə;
q.b) Səhiyyə xidmətləri;
q.q) Təhsil imkanı;
q.d) Xalqa təqdim olunan mallar və xidmətlər (mənzil daxil olmaqla).
11. Bu maddənin "q.a" - "q.d" yarımbəndlərində göstərilən sahələrin xüsusiyyətləri nəzərə alınmaqla, bu maddənin 10-cu bəndinin "q" yarımbəndi çərçivəsində bərabər münasibət prinsipi Gürcüstan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara və şərtlərə uyğun olaraq tətbiq edilir.

19 fevral 2019-cu il tarixli Gürcüstan Respublikasının *Qanunu №4281 - veb sayt, 25.02.2019.*

Maddə 3. Qanunun tətbiq sahəsi
Bu qanunun tələbləri bütün sahələrdə dövlət qurumlarının, təşkilatların, fiziki və hüquqi şəxslərin hərəkətlərinə tətbiq edilir, ancaq bu hərəkətlər bu Qanunun ikinci maddəsinin ikinci və üçüncü bəndlərinə uyğun gələn başqa bir hüquqi aktla tənzimlənmədiyi təqdirdə tətbiq edilir.
Maddə 4. Ayrı-seçkiliyin aradan qaldırılması üçün görüləcək tədbirlər
İstənilən qurum ayrı-seçkiliyi aradan qaldırmağa borcludur:
a) Öz fəaliyyətini, habelə, olduğu halda hüquqi aktları və daxili qaydaları, bu qanuna və digər ayrı-seçkiliyə qarşı qanunvericiliyə uyğunlaşdırsın;
b) Ola biləcək ayrı-seçkiliyin istənilən faktına tez və effektiv reaksiya versin;
c) Ayrı-seçkilik faktı təsdiqlənərsə, Gürcüstan Respublikasının qanunvericiliyinə və daxili qaydalara uyğun olaraq, tabeliyində olan günahkar şəxsə məsuliyyət tətbiq

etsin və üçüncü şəxsin hüquqlarına və qanuni mənafelərinə xələl gətirmədən ayrı-seçkilik nəticələrinin aradan qaldırılmasını təmin etsin.

Maddə 5. Bu Qanunun təsfiri qaydası və sahələri

1. Bu qanunun heç bir müddəası dini birləşmə üçün dini azadlığa əsaslanaraq hüquqlarının məhdudlaşdırılmasını (dini xidmət hüququ daxil olmaqla) nəzərdə tutmuş kimi izah edilə bilməz, bu şərtlə ki, bu hüquqlardan istifadə ictiamai asayişi, ictimai təhlükəsizliyi və / və ya başqalarının hüquqlarını pozmayacaq.
2. Bu qanunun heç bir müddəası Gürcüstan Respublikasının Konstitusiyasına və "Gürcüstan Respublikası Dövləti və Gürcüstan Respublikasının Apostol Avtokefal Pravoslav Kilsəsi" arasında Konstitusiya razılığını pozaraq izah edilə bilməz.
3. Ayrı-seçkiliyi aradan qaldırmaq üçün həyata keçirilmiş tədbirlər və ya bu qanunun birinci maddəsində nəzərdə tutulmuş hər hansı bir əlamətlər ilə bir şəxsin və ya bir qrup şəxsin öz hüquqlarını həyata keçirməsi / qorunması ictimai qaydanı, ictimai təhlükəsizliyi və / və ya digərlərinin hüquqlarını pozmamalıdır.
4. Bu qanunda nəzərdə tutulmuş hüquqların bu qanunun 1-ci maddəsində nəzərdə tutulmuş hər hansısa əlamətləri olan şəxslər və ya qruplar arasında mübahisənin yaranmasını nəzərdə tutması kimi izah edilməsi qadağandır.
5. Bu qanunun heç bir müddəası Gürcüstan Respublikasının Parlamenti tərəfindən təsdiqlənmiş beynəlxalq müqavilədə göstərilən hər hansısa hüququ və ya azadlığı ləğv edə bilməz və ya müqavilədə göstəriləndən daha artıq sıxışdıra bilməz.

Maddə 6. Ayrı-seçkiliyin aradan qaldırılması və bərabərliyin təmin edilməsi üzərində nəzarətin həyata keçirilməsi

1. Gürcüstan Respublikasının İctimai Müdafiəçisi ayrı-seçkiliyin aradan qaldırılmasına və bərabərliyin təmin edilməsinə nəzarət edir.
2. Gürcüstan Respublikasının Qanunvericiliyi ilə verilmiş səlahiyyətləri həyata keçirmək üçün Gürcüstan Respublikasının Müdafiəçisi:

a) Özlərini ayrı-seçkiliyin qurbanı hesab edən fiziki və ya hüquqi şəxsin və ya bir qrup şəxsin ərizə və şikayətinə baxır;
b) Ayrı-seçkilik faktını istər ərizə, istər şikayət daxilində, istərsə də öz təşəbbüsü ilə araşdırır və müvafiq tövsiyə verir;
c) Ayrı-seçkiliyin qarşısının alınması və ona qarşı mübarizə ilə bağlı ümumi təkliflər hazırlayır və müvafiq qurum və ya şəxsə göndərir;
d) Bu qanunun məqsədləri üçün zəruri qanunvericilik dəyişiklikləri barədə rəylər hazırlayır və onları qanunvericilik təklifi olaraq Gürcüstan Respublikasının Parlamentinə təqdim edir;
e) Ayrı-seçkilik qurbanını və ayrı-seçkilik aktını həyata keçirdiyi iddia edilən şəxsi dəvət edir və işi tərəflərin razılığı ilə başa çatdırmağa çalışır;
f) Ayrı-seçkilik qurbanının hüquqlarını bərpa etmək üçün, işi qarşılıqlı razılaşma yolu ilə həll etmək, başa çatdırmaq mümkün olmadıqda, ayrı-seçkiliyi sübut edəcək kifayət qədər materiallarla müvafiq quruma və ya şəxsə müraciət edir;
g) Maraqlanan şəxs olaraq, inzibati orqan onun tövsiyəsinə cavab verməyibsə və ya bu tövsiyəni bölüşməyibsə və ayrı-seçkiliyi dəstəkləmək üçün kifayət qədər dəlil varsa, Gürcüstan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq məhkəməyə

müraciət etmək və inzibati-hüquqi aktın verilməsini və ya icrasını tələb etmək hüququna malikdir;

h) Ayrı-seçkilik faktlarına dair statistik məlumatları qeyd edir və təhlil edir;
i) Ayrı-seçkilik mövzusunda ictimaiyyətin məlumatlandırılması üçün tədbirlər həyata keçirir;
j) Ayrı-seçkilik mövzusunda beynəlxalq dövlət və qeyri-hökumət təşkilatları, yerli qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti nümayəndələri ilə əməkdaşlıq edir.

Maddə 7. Gürcüstan Respublikasının İctimai Müdafiəçisinin xüsusi məruzəsi

1. Gürcüstan Respublikasının İctimai Müdafiəçisi ildə bir dəfə ölkədə ayrı-seçkiliyə qarşı mübarizə, onun qarşısının alınması və bərabərlik ilə bağlı xüsusi hesabat hazırlayır və dərc edir.
2. Gürcüstan Respublikasının İctimai Müdafiəçisinin xüsusi məruzəsində ölkədə ayrı-seçkiliyə qarşı mübarizə, onun qarşısının alınması və bərabərliyi ilə bağlı ümumi qiymətləndirmələr, nəticə və tövsiyələr, habelə əhəmiyyətli pozuntular və görülən tədbirlər barədə məlumatlar yer alır.

Maddə 8. Gürcüstan Respublikasının İctimai Müdafiəçisi tərəfindən işin müzakirəsi

1. Bəyanat / şikayətlə Gürcüstan Respublikasının İctimai Müdafiəçisinə müraciət edən şəxs ayrı-seçkilik fəaliyyətinin prezumpsiyasına səbəb olan faktları göstərməli və müvafiq materialları təqdim etməlidir.
2. Şəxs Gürcüstan Respublikasının İctimai Müdafiəçisinə ayrı-seçkilik prezumpsiyası üçün əsas verən faktları və müvafiq sübutları təqdim etməlidir, bundan sonra iddia edilən ayrı-seçkilik aktını həyata keçirən şəxs ayrı-seçkiliyin edilmədiyini sübut etmək yükünü daşıyır.
3. Gürcüstan Respublikasının İctimai Müdafiəçisi zəruri hesab edirsə, o, şifahi dinləmə təyin edə və tərəfləri işin qarşılıqlı razılaşma yolu ilə həll edilməsi üçün çağıra bilər. İşin tənzimlənməsi başa çatdıqda, Gürcüstan Respublikasının İctimai Müdafiəçisi, tənzimləmə aktında müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsinə nəzarət edir.
4. İstənilən inzibati, dövlət və yerli özünüidarəetmə orqanı (Prokurorluq, İstintaq, Ədliyyə orqanı daxil olmaqla) Gürcüstan Respublikasının İctimai Müdafiəçisinə tələbin 10 təqvim günü müddətində qanunla müəyyən edilmiş qaydada işin baxılması ilə əlaqəli materialları, sənədləri, izahatları və digər məlumatları verməyə borcludur. Məlumat şəxsi bir şəxsdən könüllü olaraq əldə edilərsə, öz istəyi ilə məlumatın ötürülməsi ilə bağlı xidmətlərin surəti və göndərilməsi xərcləri ödənilə bilər.
5. Gürcüstan Respublikasının İctimai Müdafiəçisi ərizə / şikayətə Gürcüstan Respublikasının Qanunvericiliyi ilə müəyyən edilmiş qaydada baxır.

Maddə 9. Gürcüstan Respublikasının İctimai müdafiəçisi tərəfindən qərar qəbul edilməsi

1. Əgər nəzərdə tutulan ayrı-seçkilik eyni faktla bağlıdırsa, Gürcüstan Respublikasının İctimai Müdafiəçisi iş üzrə icraatı dayandırır:

a) Mübahisəyə məhkəmə baxır;
b) İnzibati icraat davam edir;
c) Cinayət təqibi davam edir.

2. Gürcüstan Respublikasının İctimai Müdafiəçisi eyni iddia edilən ayrı-seçkilik səbəbindən icraata xitam verir:
a) İş üzrə məhkəmə qərarı var;
b) Ayrı-seçkilik faktı ərizə / şikayətə baxılması nəticəsində təsdiqlənmədi.
3. Əgər Gürcüstan Respublikasının İctimai Müdafiəçisi ərizə / şikayətə baxılması nəticəsində ayrı-seçkilik faktını təsdiqləyibsə və ayrı-seçkiliyin nəticələri aradan qaldırılmayıbsa, Gürcüstan Respublikasının ictimai müdafiəçisi pozulmuş bərabərliyin bərpası üçün tədbirlər görmək üçün tövsiyə verməklə işə davam edir.

Maddə 10. Məhkəməyə şikayətlə müraciət etmək

1. Özünü ayrı-seçkilik qurbanı hesab edən istənilən şəxs, onu ayrı-seçkiliyə məruz edən şəxsə / müəssisəyə qarşı məhkəmə iddiası qaldırmaq və mənəvi və / və ya maddi ziyana görə kompensasiya tələb etmək hüququna malikdir.
2. Məhkəməyə müraciət qaydası Gürcüstan Respublikasının Mülki Prosessual Məcəlləsi ilə müəyyən edilir.

Maddə 11. Üçüncü tərəfin işə baxılması prosesində iştirakı

1. Fəaliyyət sahəsinə şəxslərin ayrı-seçkiliyindən qorunması daxil olan bir təşkilat, müəssisə və ya birlik, bu qanunda nəzərdə tutulmuş işə baxılma prosesinə üçüncü tərəfin cəlb edilməsi tələbi ilə Gürcüstan Respublikasının İctimai Müdafiəçisinə müraciət etmək hüququna malikdir.
2. Gürcüstan Respublikasının İctimai Müdafiəçisi bu maddənin 1-ci bəndində göstərilən tələbi yalnız özünü ayrı-seçkiliyin qurbanı hesab edən şəxsin razılığı ilə təmin etmək səlahiyyətinə malikdir.

Maddə 12. Qanunla müəyyən edilmiş prosedurların həyata keçirilməsi zamanı şəxslərin müdafiəsi

1. Özünü ayrı-seçkilikdən qorumaq üçün müvafiq orqana ərizə və ya şikayət göndərdiyi və ya onunla əməkdaşlıq etdiyi üçün hər hansı bir şəxsə hər hansı bir şəkildə münasibət və ya təsir göstərmək qadağandır.
2. Bu qanunda və bundan sonra göstərilən prosedurları həyata keçirərkən müvafiq orqan ayrı-seçkilik qurbanı ilə əlaqəli şəxsi məlumatların məxfiliyini şəxsi məlumatların qorunması haqqında Gürcüstan Respublikasının Qanununa uyğun olaraq təmin edir. Ayrı-seçkilik qurbanının razılığı olmadan üçüncü tərəfə bu cür məlumatların verilməsi qadağandır, qanunla birbaşa nəzərdə tutulmuş hallar istisna olmaqla.
3. Bu maddənin tələblərinə əməl edilmədiyi təqdirdə ayrı-seçkilik qurbanı Gürcüstan Respublikasının İctimai Müdafiəçisinə müraciət etmək hüququna malikdir.

Maddə 13. Qanunun tətbiqi

Bu qanun dərc edildikdən dərhal sonra qüvvəyə minsin.

Gürcüstan Respublikasının prezidenti Qiorqi Marqvelaşvili

Kutaisi,

2 may 2014 il.

N2391-IIs